| | |
|---|---|
| 29.01.2024<br>(pr 5) | 1. 2023/2024-cü tədris ilinin qış imtahan sessiyasında aralıq qiymətləndirmənin nəticəsinə görə qeyri-müvəffəq qiymət almış AzTU-nun 1-ci kurs bakalaviriat səviyyəsində təhsil alan tələbələrin həmin fənlər üzrə ödəniş etmədən imtahan sessiyası müddətində bir dəfə təkrar imtahan vermələri üçün şərait yaradılsın.<br>2. İmtahan forması 2023/2024-cü tədris ilinin payız semestrinin imtahan sessiyasının təşkili barədə F-220 saylı 19.12.2023-cü il tarixli əmrə uyğun təşkil edilsin. |
| 16 fevral<br>2024<br>(pr 6) | **1. "Azərbaycan Texniki Universiteti və İnformasiya Texnologiyaları İnstitutu arasında elmi-tədqiqat üzrə fəaliyyətin birgə həyata keçirilməsinə dair əməkdaşlıq haqqında anlaşma memorandumu"ndan irəli gələn məsələlər.**<br>"Azərbaycan Texniki Universiteti və İnformasiya Texnologiyaları İnstitutu arasında elmi-tədqiqat üzrə fəaliyyətin birgə həyata keçirilməsinə dair əməkdaşlıq haqqında anlaşma memorandumu"ndan irəli gələn məsələlər haqqında məruzə nəzərə alınsın.<br>2. **Kibertəhlükəsizlik ixtisası üzrə SABAH Magistri Proqramında təhsil alan magistrantların hazırlığının İnformasiya Texnologiyaları İnstitutunun mütəxəssisləri ilə birgə həyata keçirilməsi.**<br>AMEA-nın müxbir üzvü Ramiz Alıquliyevin "Kibertəhlükəsizlik" ixtisası üzrə SABAH Magistri Proqramında təhsil alan magistrantların hazırlığının İnformasiya Texnologiyaları İnstitutunun mütəxəssisləri ilə birgə həyata keçirilməsi haqqında məruzəsi qənaətbəxş hesab edilsin.<br>3. **İnformasiya Texnologiyaları İnstitunun "Problems of Information Technology" jurnalının beynəlxalq elmmetrik bazalarda indeksləşdirilməsi istiqamətində birgə fəaliyyətin təşkili barədə.**<br>1. "Problems of Information Technology" jurnalının beynəlxalq elmmetrik bazalarda indeksləşdirilməsi istiqamətində işlərin həyata keçirilməsi üçün işçi qrup yaradılsın.<br>2. Azərbaycan Texniki Universitetinin tədqiqatçıları tərəfindən "Problems of Information Technology" jurnalına məqalələrin təqdim olunması istiqamətində tədbirlər həyata keçirilsin.<br>3. Azərbaycan Texniki Universitetinin saytında "Problems of Information Technology" jurnalının fəaliyyət istiqamətləri haqqında məlumat yerləşdirilsin.<br>**4.AzTU tərəfindən daxili "Qrant layihəsi müsabiqəsi"nin elan olunması üçün prioritet elmi istiqamətlərin seçilməsi və müsabiqənin keçirilməsi şərtləri haqqında.**<br>1. AzTU tərəfindən daxili Qrant Layihəsi Müsabiqəsinin elan olunması məqsədilə AzTU, İTİ, İSİ tərəfdən mütəxəssislərdən ibarət əlaqələndirici şəxslər müəyyən edilsin.<br>2. Əlaqələndirici şəxslər 1 ay müddətində Qrant layihəsi barədə elan və digər sənədləri hazırlayıb müsabiqə elanı üçün təqdim etsinlər.<br>3. Qrant Layihəsi müsabiqəsində AzTU, İTİ və İSİ mütəxəssislərinin birgə multidissiplinat layihələr təqdim etməsi üçün şərait yaradılsın. |

| | |
|---|---|
| | 4. Müsabiqə elanında prioritet elan olunan sahələrə uyğun qrant müsabiqəsinin maliyyə miqdarı və müsabiqə şərtləri müəyyən edilsin.<br>**5. AzTU-da İT Departamentinin yenidən qurulmasında İnformasiya Texnologiyaları İnstitutunun mütəxəssislərinin imkanlarından istifadə olunması haqqında.**<br>1. Azərbaycan Texniki Universitetində İT Departamentinin yenidən qurulmasında İnformasiya Texnologiyaları İnstitutunun mütəxəssislərinin imkanlarından istifadə olunması haqqında məruzə nəzərə alınsın.<br>2. Azərbaycan Texniki Universitetində rəqəmsallaşdırma istiqamətində mövcud vəziyyətin analiz edilməsi üçün İnstitutun əməkdaşlarından ibarət işçi qrup yaradılsın. |
| 21.02.2024<br>(pr 7) | **1.“Azərbaycan Texniki Universiteti və İdarəetmə Sistemləri İnstitutu (İSİ) arasında elmi-tədqiqat üzrə fəaliyyətin birgə həyata keçirilməsinə dair əməkdaşlıq haqqında anlaşma memorandumu”ndan irəli gələn məsələlər barədə.**<br>Məlumatlar nəzərə alınsın.<br>**2.Radiotexnika və telekommunikasiya mühədisliyi proqramı üzrə SABAH qruplarında bakalavr hazırlığının İdarəetmə Sistemləri İnstitutunun mütəxəssisləri ilə birgə həyata keçirilməsi barədə.**<br>1. "Radiotexnika və telekommunikasiya mühədisliyi" proqramı üzrə SABAH qruplarında praktik dərslərin keçirilməsi zamanı İSİ-nin maddi-texniki bazasından və uyğun mütəxəssislərin imkanlarından istifadə edilməsinə şərait yaradılsın.<br>2. SABAH qruplarında buraxılış işlərinin yerinə yetirlməsi zamanı real praktik mövzuların verilməsi və İSİ-nin mütəxəssislərinin imkanlarından istifadə olunması diqqətdə saxlanılsın.<br>**3. AzTU-da Telekomminikasiya texnologiya və sistemləri, Mexatronika və Sənaye İoT sahələrində aparılan tədqiqat işlərinin İSİ-da aparılan müvafiq tədqiqat işləri ilə unifikasiyası və birgə layihələrin yerinə yetirilməsi imkanları barədə**<br>1. AzTU və İSİ-nun apardığı tədqiqat işləri təhlil olunsun və uyğun sahələrdə birgə tədqiqatların aparılması üçün işçi tədqiqat qrupları formalaşdrılılsın.<br>2. Birgə yerli və beynəlxalq tədqiqat layihələrinin yazılması, təqdim edilməsi və yerinə yetirilməsi üçün fəaliyyətlər həyata keçirilsin.<br>3. Uyğun sahələr və multidissiplinar tədqiqat mövzuları müəyyən edilsin və elmi seminarlar və vorkshopların təşkil edilməsi diqqətdə saxlanılsın.<br>**4. AzTU tərərfindən daxili “Qrant Layihəsi Müsabiqəsi”nin elan olunması üçün prioritet elmi iqtiqamətlərin seçilməsi və müsabiqənin keçirilməsi şərtləri haqqında.**<br>1. AzTU tərəfindən daxili Qrant Layihəsi Müsabiqəsinin elan olunması məqsədilə AzTU, İTİ, İSİ tərəfdən mütəxəssislərdən ibarət əlaqələndirici şəxslər müəyyən edilsin.<br>2. Əlaqələndirici şəxslər 1 ay müddətində Qrant layihəsi barədə elan və digər sənədləri hazırlayıb müsabiqə elanı üçün təqdim etsinlər.<br>3. Qrant Layihəsi müsabiqəsində AzTU, İTİ və İSİ mütəxəssislərinin birgə multidissiplinat layihələr təqdim etməsi üçün şərait yaradılsın. |

| | |
|---|---|
| | 4. Müsabiqə elanında prioritet elan olunan sahələrə uyğun qrant müsabiqəsinin maliyyə miqdarı və müsabiqə şərtləri müəyyən edilsin.<br>**5. 23-25 aprel 2024-cü ildə keçiriləcək "İnformasiya Texnologiyaları və Onların Tətbiqi" üzrə 2-ci beynəlxalq konfransın (ITTA'2024) və digər konfransların təşkilində AzTU mütəxəssislərinin aktiv iştirakı və materialların beynəlxalq bazalara daxil olan jurnallarda dərci barədə.**<br>1. Elmi Konfransların təşkili zamanı məqalələrin Beynəlxalq elmi bazalara daxil olunmaqla keçirilməsi diqqətdə saxlanılsın.<br>2. İldə ən azı bir elmi konfransın təşkili və beynəlxalq bazalara daxil olunması üçün fəaliyyətlər həyata keçirilsin. |
| 23.02.2024<br>(pr 8) | **1.2023-2024-cü tədris ilinin qış imtahan sessiyasının nəticələrinin müzakirəsi.**<br>Yaz semestrində aşağıdakı tədbirlərin həyata keçirilməsi təmin edilsin:<br>• I kurs tələbələrinə tədris olunacaq İKT yönümlü fənlərin tələbələrin praktiki bilik və bacarıqlara yiyələnməsi istiqamətində qurulması;<br>• Böyük tutumlu auditoriyaların kompüterlərlə təchiz olunması və onların tədris prosesində, eləcə də, I kursların yazılı imtahanları zamanı istifadəsi;<br>• Mövcud imtahan otaqlarının infrastrukturunun yaxşılaşdırılması;<br>• İmtahan modulunun təkmilləşdirilərək mövcud İKT imkanlarına uyğunlaşdırılması;<br>• İmtahan prosesinə nəzarətin gücləndirilməsi məqsədilə imtahan otaqlarının kameralarla təchiz edilməsi, nəzarətçilərə imtahan qaydaları ilə bağlı təlimlərin təşkil edilməsi;<br>• İmtahan suallarının və testlərin yoxlanması və təkmilləşdirilməsi.<br>**2. AzTU-nun 2023-cü ildə elmi-tədqiqat və innovasiya fəaliyyəti barədə hesabatı.**<br>1. "2023-cü ildə AzTU-nun elmi-tədqiqat, elmmetrik göstəricilər və innovasiya fəaliyyəti haqqında" Elm və innovasiyalar üzrə prorektor, professor Sübhan Namazovun məruzəsi qənaətbəxş hesab edilsin.<br>2. Fakültə və kafedraların elmmetrik göstəriciləri fakültə, kafedra, İnstitutlarda ciddi müzakirə edilsin və nəticələrin yüksəldilməsi üçün tədbirlər planı hazırlansın.<br>3. QS və digər reytinq cədvəllərində AzTU-nun mövqeyinin yaxşılaşdırılması üçün bütün strukturlar lazımi dəstək verilməsini diqqətdə saxlasın.<br>4. İnstitutların elmi-tədqiqat fəaliyyətinin əsaslı şəkildə yenidən qurulması üçün kafedraların yüksək potensiallı əməkdaşlarından ciddi şəkildə istifadə edilsin.<br>5. Diferensial əmək haqqı sisteminin tətbiqi ilə bağlı təqdim edilən məlumatlar təsdiq edilsin:<br>- Mövcud Əsasnaməyə uyğun olaraq reytinq üzrə siyahıda ilk 60 nəfər professor-müəllim heyətinin aylıq məvaciblərinə 01.01.2024-cü il tarixindən 31.12.2024-cü il tarixinədək müvafiq əlavələr edilməsi üçün lazımi fəaliyyətlər həyata keçiririlsin (10 gün ərzində müvafiq dəqiqləşdirmələr aparmaqla).<br>- Beynəlxalq elmi bazalara (Web of Science və SCOPUS) daxil olan elmi jurnallarda dərc olunan məqalələrin nəticələri qısa müddətdə yekunlaşdırılsın və |

| | |
|---|---|
| | bu elmi əsərlərə görə birdəfəlik mükafatların verilməsi üçün rektorluğa təqdimat verilsin.<br>- Maliyyə departamenti bu ödənişlərlə bağlı lazımi tədbirləri həyata keçirsin.<br>6. AzTU-nun professor-müəllim heyətinin nəşr işinin aktivləşdirilməsi üçün Tədqiqat və inkişaf şöbəsi tərəfindən uyğun beynəlxalq elmi jurnallarda dərc işinə dəstək verilməsi diqqətdə saxlanılsın.<br>7. AzTU tərəfindən təşkil olunan Beynəlxalq konfrans materiallarının beynəlxalq elmi bazalara daxil edilməsi üçün lazımi fəaliyyətlər daha da aktivləşdirilsin və müsbət təcrübə tətbiq edilsin.<br>8. Sənaye əhəmiyyətli tədqiqat işlərinin yerinə yetirilməsi üçün kafedralar və institutlar tərəfindən lazımi təşəbbüslər həyata keçirilsin.<br>9. Məruzədən və çıxışlardan irəli gələn digər məsələlər ümumiləşdirilsin, kafedra və institutların elmi-tədqiqat fəaliyyətinin növbəti ildə səmərəli təşkilində nəzərə alınsın.<br>10. Qərarın icrasına nəzarət Elm və innovasiyalar üzrə prorektor Sübhan Namazova həvalə edilsin.<br>3. **Elmi adların alınması üçün Ali Attestasiya Komissiyasına vəsatət qaldırılması haqqında**.<br>- professor elmi adının alınması üçün “Mexanika” kafedrasının professoru Şirəli İskəndər Yaqub oğlu və “Radiotexnika və telekommunikasiya” kafedrasının müdiri Həsənov Mehman Hüseyn oğlu;<br>- dosent elmi adının alınması üçün “Maşınqayırma texnologiyası” kafedrasının dosenti Rəhimov Ceyhun Rasif oğlu və “Kibertəhlükəsizlik” kafedrasının dosenti Orucova Milana Yaqub qızı.<br>**4.AzTU-nun 2024-cü il üçün prioritet istiqamətlər üzrə Fəaliyyət Planı”nın təsdiqi barədə**<br>Azərbaycan Texniki Universitetinin 2024-cü il üçün prioritet istiqamətlər üzrə Fəaliyyət planı əlavə və təkliflər nəzərə alınmaqla təsdiq edilsin.<br>5. **Universitet daxili bəzi qayda və prosedurların təsdiqi haqqında.**<br>Azərbaycan Texniki Universitetində (AzTU) aşağıdakı qayda və prosedurlar təsdiq edilsin:<br>- əməkdaşların daxili nizam-intizam QAYDALARI yeni redaksiyada;<br>- işə qəbul və adaptasiya proseduru;<br>- tam maddi məsuliyyət haqqında MÜQAVİLƏ;<br>- təcrübə müqaviləsi.<br>**Əsasnamələrin təsdiq edilməsi haqqında.**<br>Mexatronika kafedrasının və Maşın dizaynı və sənaye texnologiyaları kafedrasının əsasnamələri təsdiq edilsin. |
| 23.04.<br>2024<br>(pr.9) | **1.Elmi-tədqiqat fəaliyyətlərinin gücləndirilməsi, o cümlədən elmi istiqamətlər üzrə elmi seminarların təşkili və AzTU-nun 2024-2030-cu illər üçün qısa və orta müddətli strateji planının təsdiqi haqqında.**<br>1. AzTU-nun mövcud elmi potensialı qəbul edilmiş prioritet elmi istiqamətlərə uyğun olaraq Universitetin Elmi-tədqiqat institutları tərəfindən təşkil edilsin və müvafiq kafedralarla əlaqələndirilsin.<br>2. Universitetin tədqiqat potensialı indeksli jurnallarda praktiki əhəmiyyət kəsb edən məqalələr yazmaq baxımından qiymətləndirilsin. |

3. Tədqiqat potensialı yüksək olan tədqiqatçılar dərs saatları azaldılmaqla Elmi-tədqiqat institutlarına tam və ya yarımştat olaraq işə cəlb edilsinlər.

4. Tədqiqat potensialının artırılması məqsədi ilə hər bir prioritet istiqamət üzrə əcnəbi tədqiqatçılar Elmi-tədqiqat institutlarına tədqiqatçı alim kimi işə cəlb edilsinlər.

5. Elmi-tədqiqat institutları tərəfindən bakalavriat, magistratura və doktorantura təhsil səviyyələrinin tədqiqat qabiliyyətli tələbələrinin tədqiqat işlərinə yüksək səviyyədə cəlb edilməsi həyata keçirilsin. Bu proses YTİ və kafedralarla müvafiq qaydada əlaqələndirilsin.

6. Doktorantura təhsil səviyyəsində dissertasiya işlərinə elmi rəhbərlər yalnız universitetdə işləyən alimlər təyin olunsun və ehtiyac olduqda əcnəbi alimlərə elmi rəhbər olmağa icazə verilsin.

7. Prioritet elmi istiqamətlər üzrə elmi seminar təşkil edilsin, mövzuların müzakirəsi ciddi şəkildə tədqiqatçı alimlər, əcnəbi tərəfdaş alimlər, doktorant, magistr və tədqiqat qabiliyyətli bakalavrların iştirakı ilə müəyyənləşdirilsin, dövlət və sənaye tərəfdaşları bu prosesə ciddi surətdə cəlb edilsin.

8. 2024-2030-cu illər üçün AzTU-nun qısa və orta müddətli strateji planı təsdiq edilsin.

**2. “Machine science” jurnalının fəaliyyəti ilə bağlı Tədbirlər planı haqqında.**
“Machine science” jurnalının fəaliyyəti ilə bağlı Tədbirlər planı təsdiq edilsin.

**3.“Nəqliyyat logistikası və hərəkətin təhlükəsizliyi” kafedrasının 3350.01 – “Daşınma proseslərinin idarə edilməsi” ixtisasında elmlər doktoru proqramı üzrə qiyabi doktorantı Daşdəmirov Fuad Səmid oğlunun dissertasiya işinin mövzusunun dəyişdirilməsi haqqında.**
“Nəqliyyat logistikası və hərəkətin təhlükəsizliyi” kafedrasının 3350.01 – “Daşınma proseslərinin idarə edilməsi” ixtisasında elmlər doktoru proqramı üzrə qiyabi doktorantı Daşdəmirov Fuad Səmid oğlunun dissertasiya mövzusu “Şəhər avtobus marşrut şəbəkəsinin effektivliyinin yüksəldilməsi üsullarının və modellərinin işlənilməsi” kimi təsdiq edilsin.

**4. Elmi Şuranın ““II Vətən müharibəsi iştirakçıları üçün universitet tərəfindən nəzərdə tutulan güzəştlər" haqqında Elmi Şuranın 02.06.2021-ci il tarixli iclasının qərarına əlavələr haqqında” 27 dekabr 2023-cü il (4 saylı protokol) və “Ali təhsilin magistratura və doktorantura səviyyələrində akademik yüklərə görə ödənişlər haqqında” 12 iyul 2023-cü il (9 saylı protokol) tarixli qərarlarına dəyişikliklər haqqında.**
Aşağıda adları qeyd olunan tələbələrin akademik borclarının bitdiyi və diplomlarının alınmasına şərait yaradılması üçün ödənilməsi nəzərdə tutulmuş borclardan azad edilsinlər.

**5.1 “Microsoft”un beynəlxalq nüfuzlu sertifikatlarını əldə edən AzTU akademik heyətin təlim xərclərinin ödənilməsi haqqında.**
İTT fakültəsi, İR departamenti və tədris şöbəsinə tapşırılsın ki, AzNext və digər şirkətlərlə birgə aidiyyatı fənn və onlara uyğun beynəlxalq sertifikasiya məsələlərinə yenidən baxılsın və təkliflər növbəti EŞ iclasına təqdim edilsin.

**5.2 AzTU-nun bütün struktur vahidləri üzrə müvafiq qaydalar və tənzimləyici normaların hazırlanması haqqında.**

| | |
|---|---|
| | 1. İnsan resursları departamentinə tapşırılsın ki, bütün struktur vahidlər üzrə müvafiq qaydalar və tənzimləyici normaların və hər bir struktur vahidi üçün ölçüləbilən meyarların KPİ-ların hazırlanmasını təmin edilsin;<br>2. Gündəlik, həftəlik, aylıq, rüblük, semestr, altı aylıq, illik hesabatların siyahısının hazırlanması təmin edilsin.<br>**5.3 “Qərbi Azərbaycan Texnoloji irsi” Mərkəzinin yaradılması haqqında.**<br>AzTU-da “Qərbi Azərbaycan Texnoloji İrsi” Mərkəzi yaradılsın.<br>**5.4 Beynəlxalq əlaqələr şöbəsinin əsasnaməsinin təsdiq edilməsi haqqında.**<br>Beynəlxalq əlaqələr şöbəsinin əsasnaməsi yeni redaksiyada təsdiq edilsin. |
| 08.06.2024<br>( pr.10) | **1. 2024/2025-ci tədris ili üçün Akademik Təqvim və Fəaliyyət Planının təsdiq olunması haqqında.**<br>2024/2025-ci tədris ili üçün Akademik Təqvim planı təsdiq olunsun<br><br>**2. Azərbaycan Texniki Universitetində dərsliklər, dərs vəsaitləri və digər tədris-metodiki vəsaitlərin hazırlanması və tərtibi QAYDALARI haqqında.**<br>1. Azərbaycan Texniki Universitetində dərsliklər, dərs vəsaitləri və digər tədris-metodiki vəsaitlərin hazırlanması və tərtibi QAYDALARI yenidən işlənməklə qəbul edilsin.<br>2. Nəzərə alınsın ki, bu qaydalar üzrə fənn tədrisi üçün hazırlanan təqdimatlar (prezentasiyalar) fənnin əhatəliyini, müasirliyi və tədrisin keyfiyyət meyarlarını əhatə etməlidir.<br><br>**3. 2024-2025-ci tədris ilində yeni ixtisaslar üzrə tədris planlarının təsdiq olunması haqqında.**<br>2024-2025-ci tədris ilində aşağıdakı yeni ixtisaslar üzrə tədris planları təsdiq olunsun:<br>▪ Bakalavriat səviyyəsi üzrə (**İxtisaslar:** 050406 - Maliyyə, XTBO50107 - Sistemlər mühəndisliyi).<br>▪ Magistratura səviyyəsi üzrə (**İxtisas:** 060403 - Maliyyə, **İxtisaslaşma**: Maliyyə nəzarəti və audit, Maliyyə menecmenti. **İxtisas:** 060412 - Davamlı inkişafın idarə edilməsi, **İxtisaslaşmalar:** Davamlı inkişafın siyasi idarə edilməsi, Davamlı inkişafda insan potensialı, Davamlı inkişafın planlaşdırılması, Davamlı insan inkişafı).<br>▪ MBA proqramı üzrə (**İxtisas:** 060409 - Biznesin idarə edilməsi, **İxtisaslaşma:** Biznesin təşkili və idarə edilməsi (Layihələrin idarə olunması üzrə)).<br>**4. Pakistan Milli Universiteti (NUST) ilə əməkdaşlığın genişləndirilməsi və daha da inkişaf etdirilməsi məqsədilə görüləcək tədbirlər planı haqqında.**<br>1. Pakistan Milli Elm və Texnologiya Universiteti və Azərbaycan Texniki Universiteti arasında müəyyənləşdirilmiş əməkdaşlıq istiqamətləri təsdiq edilsin (Əlavə olunur).<br>2. NUST ilə əməkdaşlığın yüksək inkişafı üçün rektorun rəhbərliyi ilə AzTU nümayəndə heyəti Pakistana səfər etsin, müvafiq zəruri ixtisaslar üzrə əməkdaşlar müəyyənləşdirilərək Pakistana elmi-tədris əlaqələrinin |

| | |
|---|---|
| | genişləndirilməsi üçün ezam olunsunlar. Ezamiyyə üçün müəyyən qrafik hazırlansın.<br>3. Pakistandan, xüsusilə NUST-dan universitetimizə zəruri ixtisas və fənlər üzrə professor və dosentlər dəvət olunsunlar.<br>**5. AzTU-da rektorun xüsusi təqaüdünün təsis edilməsi haqqında.**<br>AzTU-da rektorun xüsusi təqaüdünün təsis edilməsi üçün xüsusi qaydalar hazırlanıb növbəti Elmi Şura iclasına təqdim olunsun. |
| 12.07.2024<br>( pr. 11) | **1. CUBESAT nanopeykinin yaradılması və istifadəsi üzrə tədqiqat nəticələri haqqında.**<br>1. AzTU-nun Radiotexnika və telekommunikasiya kafedrasının nanopeyk yaratmaq və istifadə etmək üzrə tədqiqat-mühəndislik işləri yüksək qiymətləndirilsin və onun bu istiqamətdə fəaliyyəti gücləndirilsin;<br>2. Bu istiqamətdə sənaye əhəmiyyətli nümunənin yaradılması üçün 2 ay müddətində görüləcək işlərin texniki spesifikasiyası daxil olmaqla mərhələləri, işlərin qrafiki və maliyyə ehtiyacları əhatə olunaraq təklif hazırlanıb təqdim edilsin;<br>3. Sənaye nümunəsinin hazırlanması işlərinin əlaqələndirilməsi, zəruri köməkliklərin göstərilməsi, hazırlıq prosesinin qrafikinin koordinasiya edilməsi Azerkosmos agentliyi ilə birgə müzakirə olunaraq əlaqələndirilsin. Nanopeykin hazırlanması  və məqsədinin dəstəklənməsi üçün Müdafiə Sənayesi Nazirliyi və Müdafiə Nazirliyi ilə birgə tərəfdaşlar müəyyən edilməklə bəzi müzakirələr aparılsın.<br>**2. ChatGPT və digər Süni İntellekt sistemlərinə AzTU əməkdaşlarının inteqrasiyasının kütləviliyinin təmin edilməsi haqqında.**<br>1. ChatGPT və digər süni intellekt (Sİ) sistemlərindən AzTU idarəetməsinin bütün səviyyələrində xüsusilə professor-müəllim heyəti və tələbələrin kütləvi şəkildə və gündəlik fəaliyyətlərində istifadə olunması təmin edilsin.<br>2. Sİ sistemlərinin istifadə edilməsinə əməkdaşların cəlb edlməsinin genişləndirilməsi üçün xüsusi təşviq qrupu yaradılsın.<br>3. AzTU-nun təhsil-təlim prosesinə Sİ sistemlərinin tətbiqi genişləndirilərək sürətləndirlsin və bu istiqamətdə təşəbbüs və yaradıcılıqlar stimullaşdırılaraq təşviq edilsin.<br>4. Elmi tədqiqatların yerinə yetirilməsi, müvafiq uyğunluqların aparılması, nəticələrin müqayisəsi və rəylərin hazırlanması prosesində kafedraların Sİ sistemlərindən istifadəsi genişlənərək sürətləndirilsin.<br>5. İT departamenti kütləvi istifadə və professional istifadə nümunələrinin istifadəsinin əlçatan olması üçün müvafiq işlər görsün və maliyyə-təsərrüfat departamenti ilə birgə təmin edilməsini həyata keçirsin.<br>**3. Müasir mühəndis hazırlığı üçün ixtisas fənlərinin yenilənməsilə tədris proqramında dəyişikliklərin aparılması haqqında**<br>1. 2024/2025-ci tədris ilindən başlayaraq bakalaviriat təhsil səviyyəsində ixtisaslar üzrə müasir informasiya texnologiyalarını özündə ehtiva edən fənlər (Suni intellekt, Data təhlili, Maşın öyrənməsi, Əşyalar intermeti, Neyron şəbəkələr və s.) seçmə fənn blokuna müvafiq qaydada daxil edilməklə tədris planları təsdiq edilsin və tədrisi təşkil olunsun; |

2. Fakültə, kafedra və ixtisas rəhbərlərinə tapşırılsın ki, qərar layihəsinin 1-ci bəndinin icrası ilə bağlı rəy və təkliflərini 10 iş günü ərzində müvafiq qaydada razılaşdırmaqla, tədris planının təsdiq olunması üçün təqdim etsin.

3. Yeni fənlərin tədrisinin növbəti tədris ilindən başlayaraq həyata keçirilməsi üçün aidiyyəti üzrə kafedralar Sİ İnstitutu və digər partnyor tərəfdaşlarla birlikdə kompleks tədbirlər görsün.

**4. 2023-2024-cü tədris ilində AzTU fəaliyyətinin əsas göstəriciləri və nəticələri.**

2023-2024-cü tədris ilində AzTU fəaliyyətinin əsas göstəriciləri və nəticələri haqqında hesabat qənaətbəxş hesab edilsin.

**5. AzTU-nun QS, THE və digər beynəlxalq reytinqlərdə göstəricilərinin yüksəldilməsi üçün zəruri fəaliyyətlərin təşkili:**

- İnstitusional akkreditasiya qaydaları və beynəlxalq reytinqlərdə mövcud indikatorlar seçilib tətbiq edilsin. Bunun üçün müvafiq şöbə və akademik strukturların vəzifələri müəyyənləşdirilməklə meyarların (KPİs) sinifləşdirilərək bölgüsü təmin edilsin, ilkin qiymətləndirmə və auditin aparılması üçün işlər görülsün.
- Kafedra müdirləri, professor-müəllim heyəti və aidiyyəti əməkdaşlar üçün beynəlxalq reytinqlərdə nəzərdə tutulan indikatorlara uyğun metodologiyanın mənimsənilməsi və bacarıqların yüksəldilməsi məqsədilə təlim və seminarlar təşkil olunsun.
- Tədrisin bütün mərhələlərində keyfiyyətin, müasirliyin və İT əsaslı yeni tədris üsullarının tətbiqi üçün tədris prosesində iştirak edən bütün müəllimlərin biliyi qiymətləndirilsin və ən müasir səviyyədə təmin olunması üçün sertifikatlaşdırılması təmin edilsin. Bunun üçün səriştəli müvafiq institutlarla sertifikasiya proqramlı İT əsaslı müəllim proqram tədrisi həyata keçirilsin. Müvafiq sertifikatları əldə edə bilməyən şəxslər qanunvericiliyin tələbləri əsas ğötürülməklə tədris prosesinə cəlb edilməsinlər.
- Kadr hazırlığı, tədqiqat və innovasiya prosesində keyfiyyətin təmin olunması üçün inzibati və akademik strukturlarda əmək məhsuldarlığının artırılmasında rəqabət mühitinin yaradılması təmin edilsin. Bunun üçün əmək haqqı sabit (bazis) və dəyişən hissədən ibarət təşkil edilsin, dəyişən hissənin ölçülə bilən meyarlar əsasında fəaliyyəti səmərəlilik göstəricisinə uyğun olaraq rəqabət mühitində müəyyən edilsin. Rəqabət mühiti üzrə diferensial əmək haqqının dəyişən hissəsinin müəyyən edilməsi üçün müvafiq qayda işlənilsin.
- QS və digər beynəlxalq reytinqlərdə göstəricilərin yüksəldilməsi məqsədilə kafedralarda professor-müəllim heyətinin aşağıdakı sayda məqalələrinin SCOPUS və Web of Science bazalarına daxil olan jurnallarda dərc olunması diqqətdə saxlanılsın:
- Professor – ildə an azı 2 məqalə (ən azı biri Q1 və ya Q2-də olmaqla);
- Dosent – ildə ən azı 1 məqalə (Q1 və ya Q2-də olmaqla);
- Baş müəllim, müəllim və assistentlər ən azı 1 məqalə;
- Doktorantlar – təhsil dövründə ən azı 3 məqalə (2 ildə ən azı 1 məqalə olmaqla).
- Q1 və Q2 bazalarında məqalə yazmağı bacaran akademik heyət seçilsin və onlara qanunvericiliklə nəzərdə tutulan təşfiq verilsin. Q1 və Q2 bazalarında

məqalə yazmağı təsdiq etmək üçün diferensial əmək haqqı üzrə metodik qaydalara dəyişikliklər edilməsi məsələsi Elmi şuranın növbəti iclasının gündəliyinə salınsın.

- Bütün dekanlar üçün vəzifənin tutulması 30.11.2024-cü il tarixindən başlayaraq yeni meyarlar üzrə fakültələrin İT əsaslı inkişaf fəaliyyətini dəstəkləyən yanaşma qoyulmaqla qanunvericiliyə uyğun olaraq həyata keçirilsin.
- Fakültə dekanı vəzifəsinin tutulması üzrə tələblərdə əsas fəaliyyət meyarları olaraq xüsusi idarəçilik qabiliyyəti, müasirlik, yeni tədris, tədqiqat və innovasiyaları dəstəkləyə bilən, xüsusilə sənaye əməkdaşlığında xidmətləri olan və bu prosesi dəstəkləyən fəaliyyətlərə üstünlük verilsin.

**6. Azərbaycan Texniki Universiteti Publik Hüquqi Şəxsin yaradılması ilə əlaqədar bəzi idarəetmə və institusional məsələlər.**

- Beynəlxalq ticarət, logistika və marketinq kafedrası ilə İqtisadiyyat və statistika kafedrası birləşdirilərək İqtisadiyyat və statistika kafedrası adlandırılsın.
- Azərbaycan Texniki Universitetinin yeni strukturu təsdiq olunsun (əlavə olunur).
- Qeyd olunanlarla əlaqədar olaraq struktur bölmələr tərəfindən zəruri tədbirlər görülsün, həmçinin əmr layihəsi və ştat cədvəlinin yekun forması hazırlansın və idarəetmənin təkmilləşdirilməsi həyata keçirilsin. Seçim meyarlarının hazırlanması, yeni işçilərin cəlb olunması, təlimlərin keçirilməsi və bəzi strukturlarda ixtisarların edilməsi 1 oktyabr 2024-cü il tarixindən başlayaraq 3 ay müddətində icra edilsin.

**7.1 AzTU-da rektorun xüsusi təqaüdünün təsis edilməsi haqqında**

Azərbaycan Texniki Universitetində (AzTU) təhsil alan aşağıdakı meyarlara uyğun tələbələrə rektorun xüsusi təqaüdü verilsin:

- AzTU-nun bakalavr təhsil səviyyəsinə minimun 600 bal toplayaraq qəbul olmuş bütün tələbələrinə təhsil müddəti ərzində hər ay 200 (iki yüz) AZN məbləğində təqaüd verilsin;
- AzTU-nun müvafiq fakültələrinə minimum 500 bal toplayaraq qəbul olmuş, fakültənin ən yüksək ballı bir nəfər tələbəsinə təhsil müddəti ərzində hər ay 100 (yüz) AZN məbləğində təqaüd verilsin.

Qeyd edək ki, bu qərar aşağıdakı şərtlər daxilində qüvvədədir:

- Təqaüd proqramının davamlılığı üçün tələbələr təhsil müddəti ərzində yüksək nəticələr əldə etməlidirlər;
- Tələbələrə rektorun xüsusi təqaüdü, birinci kursun ikinci semestrindən etibarən imtahan nəticələrinə uyğun olaraq ümumi orta müvəffəqiyyət göstəricisi (ÜOMG) 91 (doxsan bir) və daha yüksək olduğu təqdirdə verilir;
- Rektorun xüsusi təqaüdü, tələbənin aldığı digər təqaüdləri məhdudlaşdırmır;
- Rektorun xüsusi təqaüdünü qazanmış tələbələrin təhsil müddəti ərzində semester imtahanlarının nəticəsinə uyğun olaraq, ümumi orta

müvəffəqiyyət göstəricisi (ÜOMG) 91 (doxsan bir) baldan az olarsa, təqaüdü birdəfəlik itirilmiş hesab olunur.

**7.2. Müharibə veteranlarının təhsil haqqının universitet tərəfindən ödənilməsi haqqında**

| S/N | Soyad, ad və ata adı | Qrupu | Təqdim edilən sənədlər | Təhsil haqqı borcu (manat) | Kəsr borcu (manat) | Cəmi borc (manat) |
|---|---|---|---|---|---|---|
| 1 | Əhmədov Fərid İlham | M672a4 | Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Tibbi-Sosial Ekspert Komissiyasının qərarı, Forma 88 № 0034003AAEFY, 17.08.2021, Müharibə veteranı vəsiqəsi № 140400 | 2,000.00 | - | 2,000.00 |
| 2 | Zeynalov Tunar Ədalət | M952a2 | Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi DOST Agentliyi 3 saylı Bakı DOST Mərkəzi, Arayış № 3-17-7/2-Z-6509/2024 | 1,100.00 | - | 1,100.00 |
| 3 | Quliyev Elməddin Rüstəm | 580a1 | Müharibə veteranı vəsiqəsi № 104659, 30.12.2022 | 2,800.00 | - | 2,800.00 |
| 4 | Muradzadə Muraz Namiq | 580a1 | Sosial müavinət və təqaüd haqqında Arayış № 1697803743 | 5,700.00 | - | 5,700.00 |
| | | | **CƏMİ BORCLAR** | **11,700.00** | **-** | **11,700.00** |

**7.3. Əsasnamələrin təsdiq edilməsi haqqında:**

- Qərbi Azərbaycan Texnoloji İrsi Mərkəzinin əsasnaməsi təsdiq olunsun.
- Texnoloji Transfer Ofisinin əsasnaməsi təsdiq olunsun.